# Azərbaycanın sədrliyi ilə İƏT-in Turizm Komitəsinin toplantısı olub

Fevralın 24-dən 27-dək İranın Tehran şəhərində təşkil olunan İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Regional Planlama Şurasının 35-ci iclası çərçivəsində Turizm Komitəsinin toplantısı Azərbaycanın sədrliyi ilə keçirilib.

Dövlət Turizm Agentliyindən bildirilib ki, tədbirdə Azərbaycanı Dövlət Turizm Agentliyi Aparatının rəhbərinin müavini - Beynəlxalq əlaqələr şöbəsinin müdiri Cəlil Məlikovun rəhbərliyi ilə nümayəndə heyəti təmsil edib.

İclasda İƏT-in cari il üçün nəzərdə tutulan iş planı müzakirə edilib və keçiriləcək tədbirlər siyahısı təsdiq edilib.

Görüşdə təşkilatın "Dayanıqlı turizmin inkişafı üçün regional tədbirlər planı"na dair fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi, qədim İpək yolu abidələrinin və mədəni irsinin qorunması istiqamətində müvafiq tədbirlərin təşkili, üzv dövlətlərin turizm potensialının təşkilat çərçivəsində təbliğatı üzrə müzakirələr aparılıb.

Həmçinin təşkilat daxilində yaradılmış turizm sahəsi üzrə Məsləhətləşmə Komitəsinə üzv ölkələrdən müvafiq namizədlərin təqdim edilməsi razılaşdırılıb.

Təşkilatın cari il üçün tədbirlər planında yer alan "İƏT-in İpək Yolu İşçi Qrupunun 1-ci iclası"na Azərbaycanın evsahibliyi etməsi təsdiqlənərək yekun təqvimə daxil edilib.

Azərbaycan. - 2025.- 28 fevral (№ 45).- S.8.